# Azadlığın Mahiyyəti Fəlsəfədə və Qanunda

**Namiq Babayev**[1]

## Abstrakt
Azadlıq insanın ən təməl hüquqlarından biri olub, bütün beynəlxalq hüquq sənədlərində və dini mətnlərdə xüsusi vurğulanır. Bu dərsdə azadlıq anlayışının mahiyyəti, onun növləri, məhdudiyyət amilləri, İslam dininin azadlığa baxışı, Ümumdünya İnsan Hüquqları Bəyannaməsi və İslam İnsan Hüquqları Bəyannaməsində azadlığın təqdimatı müqayisəli şəkildə təhlil edilir. Həmçinin quldarlıq fenomeni, onun tarixi kökləri və İslamın bu məsələyə yanaşması araşdırılır. İslam və Qərb düşüncə sistemlərində azadlıq anlayışının fərqli və ortaq cəhətləri elmi-nəzəri baxımdan dəyərləndirilir.

**Açar sözlər:** Azadlıq, ontoloji azadlıq, leqeslativ azadlıq, İslam insan hüquqları, fəlsəfə və qanun

---

[1] - İslam araşdırmaları fakültəsinin məzunu, Hikmət və Dinlərarası Araşdırma İnstitutu, Əl-Mustafa Beynəlxalq Virtual Universiteti, Qum, İran / Zaur582003@gmail.com

## Giriş

Azadlıq haqqı, insanın əsas hüquqlarından biri hesab edilir. Bu hüquq beynəlxalq sazişlərdə, hüquq normalarında və insan hüquqları bəyannamələrində ümumi olaraq üzərində təkid olunan mövzulardandır. Azadlıq təkcə hüquqi bir anlayış deyil, eyni zamanda fəlsəfi, əxlaqi və dini dəyərlərlə sıx bağlı olan mürəkkəb bir fenomendir.

İnsanlıq tarihi boyunca azadlıq uğrunda mübarizələr aparılmış, milyonlarla insan bu uğurda canından keçmişdir. Lakin azadlığın mahiyyəti, onun sərhədləri və mənası haqqında müxtəlif düşüncə sistemlərində fərqli yanaşmalar mövcuddur. Bu dərsdə azadlıq anlayışını İslam və Qərb düşüncəsi kontekstində müqayisəli şəkildə təhlil edəcəyik.

## 1. Azadlığın Tərifi və Növləri

İslam baxışında azadlığın həqiqətini anlamaq üçün əvvəlcə "azadlıq" kəlməsinin müxtəlif mənalarını ayırd etmək lazımdır. Bu kəlmə müxtəlif fəlsəfi, psixoloji, əxlaqi və hüquqi məfhumları ifadə edir və bunlara diqqətsizlik tədqiqat zamanı mövzuların qarışdırılmasına səbəb ola bilər.

Azadlığın ən mühüm iki növü bunlardır:

### a) Ontoloji (Fəlsəfi) Azadlıq

Ontoloji azadlıq məcburiyyətin əksi mənasını verir. Yəni insan iradə ilə bağlı olan fəaliyyətlərdə ontoloji cəhətdən azaddır. Allah-Təala insana doğru yolu göstərir, lakin seçim etmək ixtiyarını ona verir: *"Şübhəsiz Biz ona doğru yolu göstərdik! İstər şükür etsin, istər nankor olsun."* (İnsan, 3)

*"Hər kəs öz əməlinin girovundadır."* (Tur, 21)

Bu azadlıq insanlığın əsası, insan ləyaqətinin mənbəyi və onun digər canlılardan üstünlüyüdür. Fundamental olaraq bu azadlığın

kölgəsində din və dindarlıq məna tapır. İnsanın əməli, əxlaq, yaxşı və pis işlər onun azadlığına bağlı olan məsələlərdir. Əgər azadlıq olmasaydı və insan məcburiyyət üzündən hər hansı bir işi görsəydi, o zaman o işin yaxşı və ya pis olmasının da anlamı qalmazdı.

**b) Leqeslativ (Qanuni və Hüquqi) Azadlıq**

Bu azadlıqda məqsəd müəyyən olunmuş qanunlar və məhdudiyyətlər çərçivəsində hərəkət etməkdir. Yəni hər şeyi mütləq şəkildə və istənilən kimi etmək olmur. Bir insan işləyib pul qazanmaqda ontoloji olaraq azaddır, amma qanuni olaraq bu işin haram və ya halal olması onun leqeslativ azadlığını müəyyən edir.

**2. Azadlığı Məhdudlaşdıran Amillər**

İslamda insani və müqəddəs olan bir haqq tanınır və o da insanın azad yaradılmasıdır. İnsan fitri baxımdan yaradan Allahdan başqa heç kəsə ibadət etməməlidir. Lakin bu azadlıq mütləq deyil, aşağıdakı amillərlə məhdudlaşır:

**a) İnsanlıq Ləyaqəti**

Azadlıq insan öz yaradılışının hədəflərindən qafil olmayana qədər hörmətlidir. İnsan təkamül yolunda və mənəvi həyatda öz bacarıqlarını görməzlikdən gəlməməli, özünün insani ləyaqətinə zərbə vurmamalıdır. Əgər azadlıq insan ləyaqətini aradan apararsa və insanın bacarıqlarını yanlış yolda istifadə edərsə, qeyri-qanunidir və qadağandır.

Misal: Spirtli içkilər İslamda haram və qadağandır. Çünki bu əməl insanın öz hüququna təcavüzü və insan ləyaqətinin aradan getməsinə səbəb olan əməldir. Hətta bu əməl başqalarına zərər verməsə belə, insanın özünə qarşı məsuliyyəti baxımından qadağandır.

**b) Digərlərinin Hüququ**

Başqalarının haqqına və azadlığına riayət etmək azadlığın qarşısını alan əsas amillərdəndir. Heç kəsin azadlıq bəhanəsi ilə digərlərinin haqlarını və azadlığını pozmaq hüququ yoxdur.

İslam hüquqşünaslığında "Qaydeyi-Lə-Zərər" (Zərər vurma qadağası) prinsipi mövcuddur. Bu prinsipə əsasən, heç kəs öz azadlığından istifadə edərək başqalarına zərər verə bilməz.

**c) Allahın Haqqı**

İslamda Allahın haqqı insanın fərdi və ictimai hüquqlarının mənşəyidir. Allahın haqqına etinasız yanaşmaq və ona riayət etməmək nə fərdin, nə də cəmiyyətin xeyrinədir. Heç kəs ilahi haqlara göz yumaraq azadlıq bəhanəsi ilə Allahın əmrlərindən boyun qaçıra və Ona üsyan etmək haqqına malik deyildir.

Tövhid Allahın haqqıdır və ona iman insanların vəzifəsidir. İbtidai cihad Allahın haqqının müdafiəsinin bariz nümunələrindəndir.

## 3. İslamın Azadlığa Baxışı

### 3.1. Azadlığın Mənşəyi

İslam nöqteyi-nəzərindən azadlıq insanın fitri bir xüsusiyyətidir. Allah-Təala insanı xəlifə olaraq yaratmış və ona iradə vermişdir. İnsanın ən böyük üstünlüyü məhz bu iradə və seçim azadlığıdır. Quran ayələrində insanın azadlığına dair çoxlu nümunələr vardır: *"De: "Haqq Rəbbinizdəndir. Kim istəyir iman gətirsin, kim istəyir inkar etsin."* (Kəhf, 29), *"Əgər Rəbbin istəsəydi, yer üzündə olanların hamısı birlikdə iman gətirərdilər. İnsanları imana gəlməyə sənmi məcbur edəcəksən?"* (Yunus, 99)

### 3.2. İslamda Azadlığın Əhatə Dairəsi

İslamda azadlıq geniş bir sahəni əhatə edir. Bunlara daxildir:

1. **Əqidə azadlığı** – İnsan öz inancını seçməkdə azaddır.

2. **İfadə azadlığı** – İnsan öz fikirlərini bildirməkdə azaddır, lakin böhtan, qeybət və yalandan uzaq olmaq şərti ilə.
3. **Əməl azadlığı** – İnsan öz əməllərini seçməkdə azaddır, lakin bu əməllər şəriətə uyğun olmalıdır.
4. **İqtisadi azadlıq** – İnsan iqtisadi fəaliyyətlə məşğul olmaqda azaddır, lakin haqsız qazanc, faiz və aldatma qadağandır.

### 3.3. İslamda Azadlıq və Məsuliyyət

İslamda azadlıq məsuliyyətlə sıx bağlıdır. İnsan nə qədər azaddırsa, bir o qədər də məsuliyyət daşıyır. Azadlıq insana verilmiş bir imkandır və bu imkandan düzgün istifadə etmək insanın vəzifəsidir. *"And olsun zamana! Həqiqətən, insan ziyan içərisindədir. Yalnız iman gətirib saleh əməllər edənlər, bir-birinə haqqı tövsiyə edənlər və səbri tövsiyə edənlərdən başqa."* (Əsr, 1-3)

## 4. İslam və Quldarlığın Qadağası

### 4.1. Quldarlığın Tarixi Fonu

Bir çox tarixi hadisələr kimi, quldarlığın başlanğıc tarixi də dəqiq olaraq məlum deyil. Amma məlum olan budur ki, qədim tarixdə bütün cəmiyyətlərdə quldarlığın nümunələrini görmək olar. İslam elə bir zamanda zühur etdi ki, quldarlıq bəlası bütün dünyanı bürümüş və cəmiyyətləri viran qoymuşdu.

Quldarlığın kökü Avropadan qaynaqlansa da, Avropada olan quldarlıq hərəkatı zaman və şəraitə uyğun olaraq quldarlığın formasını dəyişdirmiş, fərdi quldarlıqdan toplum halda (cəmiyyətin istismarı) quldarlığa keçilmişdir ki, bu gün də davam edir. İngiltərə quldarlıqda bir addım öndə olduğu kimi, istismarda da həmişə öncüllərdən olmuşdur.

### 4.2. İslamın Quldarlığa Yanaşması

İslamda əsas prinsip olaraq insanların azadlığı nəzərə alınır, quldarlıq isə (çox məhdud halda) əsas prinsipdən istisna ola bilər. İnsanın öz azadlığı nəinki onun haqqı, hətta öhdəliyidir. Yəni heç bir insan özünü başqasının qulu olmasına razı olmamalıdır.

İmam Əli (ə) buyurur: "Ey insanlar! Həzrəti Adəmdən nə qul dünyaya gəlib, nə də kəniz. Bütün insanlar azaddırlar."

İslam Ümumdünya İnsan Hüquqları Bəyannaməsindən 1400 il əvvəl müxtəlif formalarda quldarlıq fenomeni ilə mübarizə aparmış və insanların azadlığı üçün çalışmışdır.

İslam dininə görə insan alveri ən pis əməldir. Həzrəti Məhəmməd (s) buyurur: "Ən pis şəxs insan alveri edən şəxsdir." "İnsan satmaq ən böyük günahlardandır."

## 4.3. İslamın Qulların Azad Edilməsi Proqramı

İslamın qulların azad edilməsi sahəsində özünəməxsus proqramları vardır:

Birinci addım: Quldarlığa yol açan amilləri aradan aparmaq. Gücün, qələbənin və digər səbəblərin quldarlığa icazə verdiyi bir zamanda, İslam dini qul götürməyi müharibə şəraitində və şər'i hakimin icazəsi ilə məhdudlaşdırdı.

İkinci addım: Qulların azad edilməsinə dair qanunlar və metodlar irəli sürmək.

İslamda qul azad etmək ibadət hesab olunur. Fiqh və hədis kitablarında "qul azad etmək" (bab ül-ətq) adında xüsusi bölmələr vardır. İslamın öndə gedən rəhbərləri bu işdə ən öncüllərindən olmuşlar. İmam Əli (ə) barədə yazılıb ki, O, min nəfər qulu alaraq və ya başqa yollarla azad etmişdir.

## 4.4. İslamın Qulların Şəxsiyyətini Diriltməsi

İslamın qulların aradan getmiş şəxsiyyətini diriltdiyinə ən böyük şahid tarixin özüdür. Peyğəmbərin (s) ən yaxın köməkçiləri qullar

olmuşdur. Peyğəmbərin (s) ən öncül köməkçilərindən hesab olunan Salman Farsi, Bilal Həbəşi, Əmmar Yasir və Qəmbər azad olunmuş qullar idilər.

**5. İslam İnsan Hüquqları Bəyannaməsində Azadlıq**

Maddə 11.1: İnsan azad dünyaya gəlir və Allahdan başqa heç bir kəsin onu öz ixtiyarına götürməklə qul etmək, aşağılamaq, təhqir etmək və ondan sui-istifadə etmək hüququ yoxdur.

Maddə 11.2: İstismar, bütün növləri ilə və ən pis növü olan quldarlıq olmaqla bütövlükdə qadağan olunub və bundan əziyyət çəkən millətlərin bu zülmdən qurtuluş və öz talelərini özləri təyin etmək haqları vardır. Bu və ya digər hallarda bu zülmdən əziyyət çəkən topluma, istismar və işğal əleyhinə mübarizə aparmaq üçün yardım və onları himayə etmək, bütün millətlərin və dövlətlərin vəzifəsidir. Bütün millətlərin öz şəxsiyyətlərini və təbii sərvətlərini domenantlıqdan qorumağa birbaşa haqları var.

Maddə 24: Bu sənəddə qeyd olunmuş hüquq və azadlıqlar İslam şəriəti əsasındadır.

**6. Ümumdünya İnsan Hüquqları Bəyannaməsində Azadlıq**

Maddə 1: Bütün insanlar öz ləyaqətləri və hüquqları etibarilə azad və bərabər doğulurlar. Onlara ağıl və vicdan bəxş edilib və onlar bir-birinə münasibətdə qardaşlıq ruhunda davranmalıdırlar.

Maddə 3: Hər bir insan yaşamaq, azadlıq və şəxsi toxunulmazlıq hüququna malikdir.

Maddə 4: Heç kim kölə vəziyyətində və ya asılı vəziyyətdə saxlanılmamalıdır; köləliyin və kölə ticarətinin bütün formaları qadağan edilir.

Maddə 29.2: Hər bir insan öz hüquq və azadlıqlarını həyata keçirərkən yalnız o məhdudiyyətlərə məruz qala bilər ki, onlar müstəsna olaraq, başqalarının hüquq və azadlıqlarının lazımı

qaydada tanınması və onlara hörmət edilməsinin təmin edilməsi və demokratik cəmiyyətdə əxlaq qaydalarının, ictimai asayişin və ümumi rifahın ədalətli tələblərinin ödənilməsi naminə qanunla müəyyən edilmişdir.

Maddə 29.3: Bu hüquq və azadlıqların həyata keçirilməsi heç bir halda Birləşmiş Millətlər Təşkilatının məqsəd və prinsiplərinə zidd olmamalıdır.

## 7. İslam və Qərbin Azadlıq Anlayışı: Fərqli və Müştərək Cəhətlər

### Ümumi Cəhətlər

Hər iki bəyannamə insanın azad dünyaya gəlməsi və azadlıq hüququna malik olması mövzusunda ortaq fikirdədirlər.

### Azadlığın Mənşəyi Məsələsi

İslam insan hüquqları bəyannaməsinə əsasən bəşəriyyətin bütün fərdləri azad yaradılıbdır. Çünki onların hamısı Adəm (ə) və Həvvanın övladlarıdır ki, onlar da azad idilər. Bəs insanın yaradılışını Quranın dediyi kimi qəbul etməyənlər və materialist təfəkkürə söykənənlər hansı dəlilə əsasən bütün insanların azad dünyaya gəldiyini iddia edirlər?

İslamın baxışı kölgəsində asanlıqla və aydın şəkildə izah etmək olar ki, heç bir insan genetik olaraq dünyaya qul olaraq gəlmir və köləlik xarici amillərin təsirindən yaranan bir fenomendir.

### Azadlığın Fəlsəfəsi Məsələsi

İslam insan hüquqları baxışı ilə azadlığın fəlsəfəsini və ona ehtiram olunmasının zəruriliyini Tövhid prinsipi ilə asanlıqla izah etmək mümkündür. Çünki tövhid baxışında hədəf, təkamül yolu və insanı təkamül yolundan saxlayan amillər arasında şəffaf şəkildə məntiqi əlaqə mövcuddur.

Ümumdünya insan hüquqları bəyannaməsi isə azadlığın fəlsəfəsi, onun mənşəyi və azadlığa ehtiramın zəruriliyinin səbəblərini izah etməkdə acizdir. Bəyannamənin əvvəlində "Azadlığın əsası bütün insanların bir ailənin üzvü olmasındadır" yazılsa da, bunun səbəbi izah edilmir.

Azadlığın isbatı aşağıdakı nüanslara bağlıdır:
a) Varlıq aləmində insanın məqamı və rütbəsi müəyyən edilməlidir
b) Yaradılışın hədəfi və insanın sonu təyin olunmalıdır
c) İnsanı təkamül yolundan saxlayan amillər tanınmalıdır

Yalnız belə olduqda azadlıq öz həqiqi mahiyyətini və dəyərini tapır. Maddi baxışla və tövhidi inkar etməklə insan yaradılışının hədəflərini və aqibətini əqli şəkildə izah etmək mümkün deyil.

**Azadlığın Məhdudiyyəti Məsələsi**

İslam insan hüquqları bəyannaməsinə görə azadlığın məhdudiyyəti ilahi şər'i hökmlər əsasında, Allahın haqqını, insan ləyaqətini və digərlərinin hüquqlarını qorumaq məqsədilə təyin edilir.

Ümumdünya insan hüquqları bəyannaməsində isə azadlığın əhatəsini kimlərsə tərəfindən yazılmış qanunlar təyin edir. Belə olduqda isə "bu qanun mənim zövqümə görə deyil" deyərək qanundan üz döndərmək də adi qarşılanmalıdır.

**Quldarlıq Məsələsi**

İslam insan hüquqları bəyannaməsinin 11.1-ci maddəsinə əsasən quldarlıq mütləq şəkildə qadağan deyil. Çünki bir insan öz ixtiyarından sui-istifadə edərək əsir götürülməyə və ya həbs olunmağa layiq ola bilər.

Məsələn, əgər bir şəxs İslamın haqq və ədalətli qanunlarının əleyhinə qiyama qalxarsa, məğlubiyyətindən sonra həbs olunması

zəruridir. Bu həm onun, həm də digər insanların xeyrinədir. Belə bir şəxs azad olsa, İslam düşmənlərinə sığınar, düzgün təlim və tərbiyədən kənarda qalar, yenidən İslam cəmiyyətinin təhlükəsizliyini poza bilər.

Əgər belə bir insan həbs olunaraq İslam cəmiyyətində yaşayarsa, yavaş-yavaş düzgün təlim və tərbiyə nəticəsində doğru yola gələ və hətta Allahın insan üçün təyin etdiyi kamillik yolunda irəliləyə bilər. Digərləri də onun şərindən qorunmuş olar.

## Nəticə

Azadlıq insanın ən təməl hüquqlarından biridir. Bu hüquq İslamda və beynəlxalq hüquq sənədlərində xüsusi vurğulanır. Lakin azadlıq anlayışına yanaşmada İslam və Qərb düşüncəsi arasında əsaslı fərqlər mövcuddur.

İslam baxışında azadlıq iki əsas kateqoriyaya ayrılır: ontoloji (fəlsəfi) azadlıq və leqeslativ (qanuni) azadlıq. Ontoloji azadlıq insanın fitri xüsusiyyəti olub, heç kəs tərəfindən əlindən alına bilməz. Leqeslativ azadlıq isə qanunlarla tənzimlənir və Allahın haqqı, insan ləyaqəti və başqalarının hüququ ilə məhdudlaşır.

İslam quldarlıq fenomeni ilə mübarizədə mühüm rol oynamış, 1400 il əvvəl qulların azad edilməsi üçün xüsusi proqramlar tərtib etmişdir. Peyğəmbərin (s) ən yaxın səhabələrinin qullardan olması İslamın bu sahədəki uğurunun bariz nümunəsidir.

İslam İnsan Hüquqları Bəyannaməsi ilə Ümumdünya İnsan Hüquqları Bəyannaməsi arasında azadlıq anlayışına yanaşmada əsaslı fərqlər vardır. İslam bəyannaməsi Allahın haqqını bütün hüquqların mənşəyi kimi qəbul edir, istismarı pisləyir, xalqların öz müqəddəratını təyin etmə hüququnu vurğulayır. Azadlığın məhdudiyyətini ilahi hökmlərə əsaslandırır.

Ümumdünya insan hüquqları bəyannaməsi isə dini elementlərə biganə qalır, fərdçilik prinsipinə əsaslanır, azadlığın fəlsəfəsini izah etməkdə aciz qalır.

Nəhayət, qeyd etmək lazımdır ki, azadlıq insanın ən böyük nemətlərindəndir. Lakin bu nemətdən düzgün istifadə etmək, onu Allahın haqqı, insan ləyaqəti və başqalarının hüququ çərçivəsində həyata keçirmək hər bir insanın məsuliyyətidir. İslamın azadlıq anlayışı insanı həm dünyada, həm də axirətdə xoşbəxt etməyi hədəfləyir.

**Xülasə**

- **Ontoloji azadlıq** – İnsanın iradə azadlığı, məcburiyyətin olmaması.
- **Leqeslativ azadlıq** – Qanunlar çərçivəsində hərəkət etmək.
- **Azadlığı məhdudlaşdıran amillər** – İnsan ləyaqəti, başqalarının hüququ, Allahın haqqı.
- **İslamda quldarlıq** – Əsasən qadağan, çox məhdud hallarda mümkün.
- **Qul azad etmək** – İslamda ibadət sayılır, xüsusi proqramlar mövcuddur.
- **Peyğəmbərin qul səhabələri** – Salman, Bilal, Əmmar, Qəmbər və s.
- **İslam İnsan Hüquqları Bəyannaməsi** – Allaha itaəti əsas götürür, istismarı pisləyir.
- **Ümumdünya İnsan Hüquqları Bəyannaməsi** – Dini elementlərə biganə, fərdçi yanaşma.

## Ədəbiyyat

Qurani-Kərim – A. Mehdiyevin tərcüməsi, Bakı, 2009
Nəhcül-Bəlağə – İmam Əlinin (ə) kəlamları
Ümumdünya İnsan Hüquqları Bəyannaməsi – 1948
İslam İnsan Hüquqları Bəyannaməsi – İslam Əməkdaşlıq Təşkilatı, 1990
Məkarim Şirazi, "İslamda İnsan Haqları", Qum, 1390
Cəfəri, Məhəmmədtağı, "İnsan Haqları və Azadlıqlar", Tehran, 1385
Təbatəbayi, Məhəmmədhüseyn, "Əl-Mizan", Qum, 1389
Mütəhhəri, Mürtəza, "İslam və İnsan Haqları", Tehran, 1388
Səbzevari, "Azadlıq Fəlsəfəsi", Qum, 1392
Kərimi, Cəfər, "İslamda Fərdi və İctimai Azadlıqlar", Qum, 1395
Beynəlxalq Hüquq Sənədləri, Bakı, 2010
Durant, Vil, "Sivilizasiya Tarixi", (müxtəlif nəşrlər)